# Əbülhəsən yaradıcılığında sinfi düşmən obrazları

**Nuranə Əsədullayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. Azərbaycan.
E-mail: x_nura_x@list.ru

**Annotasiya.** Məqalədə Azərbaycan romanının sovet dövründə ilk təməl daşlarını qoyan yazıçılardan biri Əbülhəsənin yaradıcılığında ideoloji düşmən obrazları araşdırılır. Göstərilir ki, Azərbaycan həyatının ən çətin və ziddiyyətli 20-30-cu illərinin hadisələri Əbülhəsənin hekayə və romanlarında bədii şəkildə əks olunur. Əbülhəsənin "Sofi", "Öldürdü", "Boşandı", "Aras", "İyirmi bir" və s. hekayələrində yeni ictimai münasibətlər, hadisələr, dövrün gerçəkləri əks etdirilir. Yeni quruluşu qəbul edən və etməyən obrazlar arasında yaranmış münasibətlərin təsviri və inkişafında, həmçinin bədii həllində müəllif psixoloji məqamlara diqqət yetirir. Yazıçı öz hekayələrində obrazın mənəvi-əxlaqi keyfiyyətlərinə, onun özünəməxsusluğuna, ruhi aləminə geniş yer verir. Qeyd etmək lazımdır ki, bu zaman yazıçı üçün müasir dövrdən əsər yazmaq olduqca çətin idi. Ona görə ki, müasir hadisələrin təsviri zamanı hakim ideologiyanın mövqeyi də bu və ya digər şəkildə əsərdə öz əksini tapmalı idı. Bu zaman hadisələrə proletar mövqeyindən, ideoloji cəhətdən yanaşmaq və təsvir etmək lazım gəlirdi. Lakin Əbülhəsənin bir yazıçı kimi üstünlüyü onda idi ki, o, şahidi olduğu hadisələri mümkün qədər proletar ideologiyasına tabe etdirmədən təsvir etməyə çalışırdı.
"Yoxuşlar" və "Dünya qopur" romanlarında Əbülhəsən dövrün gerçəkliklərini müəllif mövqeyi olmadan təsvir etməyə çalışmış, bir çox obrazlar vasitəsilə iki cəbhə, iki qütb, iki dünyagörüş və ictimai quruluşu təmsil edən obrazlar yaradılmış və onların psixologiyası reallıqla verilmişdir. Bu obrazlar müəllif tərəfindən sadəcə düşmən olaraq yaradılmamışdır, qarşı-qarşıya duran qüvvələri təmsil edən dünyagörüş kimi ortaya çıxmışdır. O, həm də inqilabın Azərbaycan cəmiyyətinə gətirdiyi sarsıntıları, on minlərlə insanın həyatının dağılmasını, taleyinin qırılmasını göstərirdi.
**Açar sözlər:** Əbülhəsən, hekayə və romanlar, sinfi ziddiyyətlər, düşmən obrazı

**Məqalə tarixçəsi:** göndərilib – 01.03.2022; qəbul edilib – 12.03.2022

# Images of the class enemy in the works by Abulhasan

**Nurana Asadullayeva**
Doctor of Philosophy in Philology
National Museum of Azerbaijan Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: x_nura_x@list.ru

**Abstract.** In the article, the images of ideological enemies in the work of Abulhasan, one of the writers who laid the first cornerstones of the Azerbaijani novel in the Soviet period, are analyzed. It is shown that the most difficult and contradictory events of the 20-30s of Azerbaijan's life are reflected in Abulhasan's stories and novels. Abulhasan's stories "Sophie", "Killed", "Divorced", "Aras", "Twenty-One", etc. reflect new social relations, events, the facts of the era. The author pays attention to psychological moments in the description and development of relations that have arisen among images who are able or are unable to accept a new structure, as well as in their artistic solution. In his stories, the writer gives much attention to the spiritual and moral qualities of the image, its originality, and spiritual world. It should be noted that at this time it was quite difficult for the writer to write a work about the time. Because the position of ruling ideology was needed to be reflected in the work in one way or another in the description of modern events. So events had to be viewed and described from the proletarian position and ideological point of view.

However, Abulhasan's advantage as a writer was that he tried to describe the events he had witnessed, without subjecting them to proletarian ideology as much as possible.
In the novels "Ascents" and "The world falls apart", Abulhasan tried to describe the realities of the time without an author's position, and by means of many images, representing two fronts, two poles, two worldviews and social structures, realistically created their psychology. These images were not created by the author as mere enemies but emerged as a worldview representing opposing forces. He also demonstrated shaking of the revolution brought to the Azerbaijani society, the destruction of the lives of tens of thousands of people and the destruction of their destinies.
**Keywords:** Abulhasan, stories and novels, class contradictions, enemy image

**Article history:** received – 01.03.2022; accepted − 12.03.2022

## Giriş / *Introduction*

Sovet dövrünün ilk iki onilliyində yazıb-yaradan yazıçılardan S.Rəhimov, M.Hüseyn, M.Cəlal və başqalarının əsərləri yalnız realist nəsri inkişaf etdirmək, onu forma və məzmunca zənginləşdirmək baxımından deyil, həm də dövrün kollektivləşmə hadisələrini, təlatümlərini, sinfi ziddiyyətlərini əks etdirmək baxımından əhəmiyyətlidir. Bu mənada Azərbaycan romanının sovet dövründə ilk təməl daşlarını qoyan yazıçılardan biri Əbülhəsəndir. Onun yaradıcılığı həmçinin kollektivləşmə dövrü gerçəkliklərinin təsviri baxımından da zəngin material verir. Azərbaycan həyatının ən çətin və ziddiyyətli 20-30-cu illərinin hadisələri Əbülhəsənin hekayə və romanlarında bədii şəkildə əks olunur. 20-ci illərin ortalarından "Məhbus" (1925) hekayəsi ilə yaradıcılığa başlayan gənc Əbülhəsən bir qədər sonra "Sofi" (1927), "Öldürdü" (1929), "Boşandı" (1930), "Aras" (1930), "İyirmi bir" (1930) və s. hekayələri ilə ətrafında baş verən ictimai-siyasi hadisələri qələmə almışdı. Yazıçı həm hekayə, həm də roman yaradıcılığında yeni ictimai münasibətləri, hadisələri əks etdirməyə çalışırdı.

## Əsas hissə / *Main Part*

"Sofi" və "Öldürdü" hekayələrində dövrün psixoloji mənzərəsi. Müəllif yeni dövrün qəhrəmanı olaraq "Sofi"də ("Sofi") baş qaldırmış dəyişiklik arzusunu açıq tendensiya ilə deyil, psixoloji yönləri ilə təqdim edirdi, insanın dəyişməsi kimi incə bir məsələyə toxunurdu. Əbülhəsənin ilk mənfi tipləri, başqa sözlə, sinfi düşmən obrazı da məhz bu hekayədə yaranır. O, Sofini cəmiyyət üçün parazit hesab edir və onun bu cəmiyyətdə qalmasını mümkünsüz sayırdı. Yazıçı bu obrazı iyirmi ildən bəri ömrünü özü kimi sofi əmisinin dükanında, hücrələrdə, məscidlər küncündə, Məşhəddə, Kərbəlada keçirmiş bir bədbəxt olaraq təsvir edir. Əlbəttə, burada hələ gənc Əbülhəsənin ictimai həyata dialektik münasibəti tam olaraq üzə çıxmır. O, baş verən proseslərə çox zaman birtərəfli baxırdı. Bu hekayədə yazıçı həyatda bitərəf olan Sofinin mövqeyi ilə barışa bilmir və onu proletar mövqeyinə çəkmək istəyirdi. Tənqidçi M.Hüseyn Sofi obrazının bu cür bədii həllini həm də yazıçı mövqeyi ilə müqayisə edərək yazırdı: "Əbülhəsən bu hadisədən istifadə edərək ədəbiyyatda qayəsizliyə, "bitərəflilik" təmayülünə zərbə endirmişdir. O, göstərmişdir ki, bitərəf qalmaq olmaz. "Bitərəf" qalan bir yazıçı özü istəsə də, istəməsə də müəyyən bir sinfə xidmət etmiş olacaqdır" [8, s.89].

Əbülhəsənin "Öldürdü" hekayəsinin əsasında da dövrün psixologizmini üzə çıxaracaq hadisə dururdu. Yazıçı burada milyonçu qoca ata ilə gənc oğul arasındakı ixtilafları köhnə dünya ilə yeni dünya arasındakı münasibətlər kontekstində vermək istəmişdir. Burada atanın təkcə yeni ictimai quruluşa yox, öz oğluna qarşı düşmən mövqedə durmasının ictimai səbəbləri əsaslandırılmışdır. Yeni quruluş var-dövlətini əlindən aldıqdan sonra ata sahib olduğu mədənləri yandırıb xaricə qaçmağı oğluna təklif etsə də, oğul bundan boyun qaçırmış və yeni cəmiyyət quruculuğunda fəal

iştirak etməyi üstün tutmuşdur. Fərzi bununla kifayətlənməmiş, atasından qalmış var-dövləti hökumətə təhvil verərək öz halal zəhməti ilə dolanmağa başlamışdır. Bununla yazıçı Fərzinin öz keçmişindən imtina etməsini və yeni həyata başlamasını göstərmək istəmişdir. Psixoloji düyün burada tamamlanmır, bu cəmiyyətlə barışmayan atasının səkkiz ildən sonra yenidən geri qayıtması prosesləri bir qədər də ziddiyyətli edir və mürəkkəbləşdirir. Fərzi arvadı Zərrinin məsləhəti ilə atasını evinə gətirir. O, belə düşünürdü ki, atasını yola gətirə və yeni cəmiyyət üçün gərəkli bir insana çevirə bilər. Lakin atasının düşüncələrindən belə məlum olur ki, o, bu müddət ərzində heç dəyişməyib, hələ də yeni cəmiyyətə qarşı kin-küdurət bəsləməkdədir. Oğul atanı tanıdıqdan sonra belə bir qənaətə gəlir: "...bütün yeniliyə, bu hökumətə, bu quruluşa qarşı savrılmaq istəyən nifrət və lənətin bir heykəlidir", "keçmişin bütün acısını, hirs və qəzəbini özündə toplamış qara bir vücuddur", "bizim hamımızın, bütün ölkənin bayquşudur" [2, s.83-84].

Əbülhəsən yeni quruluşu qəbul etməyən və etmək istəməyən atanı oğula qarşı düşmən qoymaqla psixoloji düyün yaradır. Oğula da məlum olur ki, atası heç zaman bu quruluşu qəbul etməyəcək. Burada yazıçı psixoloji məqamlara müraciət edir və ata-oğul qarşıdurmasını oğulun atanı öldürməsi ilə tamamlayır və bununla da, "öldürdü" ideyası təkcə mənəvi cəhətdən yox, fiziki cəhətdən də təsdiqlənmiş olur. Yazıçı bununla oğulun atadan qalma hər şeydən, hətta onun fiziki varlığından belə imtina eytdiyini göstərmişdir. Lakin əsərin belə bədii həlli bəzi tənqidçilər tərəfindən məqbul hesab edilməmişdir. M.Arif ata-oğul düşmənçiliyinin ictimai köklərinin kifayət qədər göstərilmədiyini əsas tutaraq hekayədə mühüm bir məsələnin "birtərəfli, qismən süni və meşşan miqyasında" [1, s.24] həll edilməsini doğru hesab etmirdi. Ədəbiyyatşünas Y.İsmayılov isə M.Arifin bu fikri ilə razılaşmayaraq "Öldürdü" hekayəsini bədii keyfiyyətcə və ideyaca maraqlı bir əsər hesab edir: "Səfil qocanın mürəkkəb xarakterini açdıqda, hadisə və insanlara münasibət bildirdikdə, ata-oğul arasındakı dərin təzadı nəzərə çarpdırmaq istədikdə yazıçı incə psixoloji məqamlardan, xüsusən hissiyatla zəngin baxışlardan, qəzəb saçan gözlərdən bədii vasitə kimi bacarıqla istifadə edir" [6, s.22].

Əbülhəsənin "Yoxuşlar" və "Dünya qopur" romanlarında ideoloji düşmən obrazları. Əbülhəsən hekayələrində qoyduğu kollektivləşmə hərəkatı və onun ziddiyyətləri mövzusunu roman yaradıcılığında da davam etdirir. Yazıçının "Yoxuşlar" və "Dünya qopur" romanlarında dövrün reallıqları, mübarizənin çətinlikləri, ziddiyyətliliyi, həyat həqiqəti daha geniş miqyasda təsvir edilirdi. Əgər yazıçı hekayələrində ayrı-ayrı adamları öz mühitindən, sinfindən ayıraraq təsvir edirdisə, romanlarında hadisələrin dərinliyinə gedir və ictimai münasibətləri olduğu kimi təsvir etməyə çalışırdı.

Əbülhəsənin "Yoxuşlar" romanında kəndlilərin daha çox kolxozlara axışdığı dövr təsvir olunur və bu proses bir kəndin timsalında göstərilir. Yazıçı Azərbaycan kəndinin yenidən qurulmasını Bünyad, Muzdur, Qumru, Cəlil, Babacan, Nuşu kimi obrazların həyatı və mübarizəsi müstəvisində təsvir edir. Yeniliklə köhnəliyin mübarizəsinin qızğın zamanında bu kənddə getdikcə hadisələr daha dərin qatlara enir, ictimai münasibətlər önə çıxır. Bünyad da belə bir zamanda kəndə gəlir və sinfi mübarizənin mərkəzinə düşür. Təcrübəsiz olması ona müəyyən çətinliklər törətsə də, ictimai-mənəvi amillər onu bu sınaqdan çıxarır. Romanda sosializm cəmiyyətinin yenidən qurulması prosesinə geniş yer verilmiş, müsbət obrazlarla yanaşı, ona alternativ olaraq sinfi düşmən obrazları da yaradılmışdır. Lakin bu obrazlar C.Cabbarlıda olduğu kimi maskalanmışdır və son dərəcə ehtiyatlı hərəkət edirlər. Bu mübarizə bəzən mənəvi-əxlaqi, bəzən isə iqtisadi sahədə boy göstərir. Qumru ilə Kamranın – bu iki gəncin sevgisinə xələl gətirmək mübarizənin mənəvi tərəfidir. İqtisadi tərəfi isə onların yeni quruculuq yolundakı işlərinə gizli şəkildə mane olmaqdan ibarətdir. Qumru kimi xalq məhəbbəti qazanmış bir qadının Kamrana ərə getməsi Cəfər Xəndanı razı salmır və o, belə bir qənaətə gəlir ki, Qumru kənd içərisində yaşına və adına layiq hərəkət etmir [5, s.4].

Hadisələrin ümumi inkişafı və məntiqi davamı Kamalın simasının açılmasına yönəlir. Burada Qumru Cəmil ilə Kamranı bir-birindən ayırır. Qumrunun sonda könül verdiyi Kamrana görə başı bəlalar çəkir, onu partiyadan çıxarırlar. Bununla belə o, həyatdan əlini üzmür və heç zaman bədbinliyə qapılmır. Qumru başına gələn bu hadisələrdə hökuməti təqsirli bilmirdi: "Bu, Şura hökumətinin təqsiri deyil! Bu, bizim səhvimizdir, özümüz də bu səhvi düzəldəcəyik! O, bu sözləri

elə-belə təbliğat, ya da quru təsəlli üçün demirdi. O, özünün möhkəm qənaətini gözləyirdi" [4, s.513-514]. Qumrunun bu yolu seçməsi Cəmili narazı salır. Cəmil ictimai mənşə və sinfi mənsubiyyət etibarilə Qumruya yaxın olması səbəbindən onu sevəcəyinə ümid bəsləyirdi, Qumrunun mənəvi-əxlaqi problemlərə üstünlük verdiyini görmürdü. Buna görə də Qumru sinfi mənsubiyyət etibarilə ona yaxın olanı yox, atası sinfi düşmən olan Kamranı seçir. Cəmil məktubunda bunu açıq şəkildə Qumruya da bildirirdi: "Bu mənim qeyrətimə dəyir. Sinfi qeyrətimə dəyir. Mən səni bizə yad olan adamın ocağının qırağında görmək istəmirəm. Kamalın oğluna ərə getməyinə mən sənin sinfi düşmən lagerinə keçməyinə baxan kimi baxıram. Mən heç vaxt buna razı ola bilmərəm" [4, s.386].

Cəmil hadisələrə əslində sinfi düşmən mövqeyindən baxır və bu səbəbdən də Qumrunun onu deyil, Kamranı seçməsini heç cür qəbul edə bilmir. Qumrunun bu seçimi ilə psixoloji vəziyyət bir qədər də gərginləşir. Cəmil Kamrana insani nöqteyi-nəzərdən yox, sinfi baxımdan yanaşdığından onu özünə sevgidə rəqib görmürdü. Gah ona böhtan atmağa çalışır, gah da ona hədə-qorxu gəlirdi. O, hər vəchlə Qumru ilə Kamranın münasibətlərinə mane olmağa, onları camaatın gözündən salmağa səy göstərirdi. Bu münasibət Kamranın anasına qarşı da çox sərt olur. Cəmil milis rəisinin müavini işləyərkən Kamranın anası Süsənə qarşı kobud rəftar edir. Hətta Süsəni ərinin meyiti ilə tək-tənha qoyaraq "Cəzasıdır qoy çəksin. Belə oğul doğub süd verdiyinə görə belə anaları güllələmək də azdır" [4, s.500], – deməsi onun məsələyə mənəvi-əxlaqi cəhətdən deyil, sırf sinfi nöqteyi-nəzərdən baxdığını göstərir. Yazıçı bu mənzərəni təsvir edərkən Cəmilin daxili-mənəvi aləmini bütün çılpaqlığı ilə üzə çıxarır: "Maşın silkələndikcə meyit quru ağac kimi o yana, bu yana aşır, özü ilə bərabər Süsəni də o tərəf, bu tərəfə sürüyürdü. Süsən gah onun başından, gah da qol-qıçından yapışmalı olurdu. Döngələrdə bəzən Süsən hətta arxası, ya da böyrü üstə yıxılır, meyit onun üstünə aşırdı. Sanki əməlindən zövq almaq, həm də Süsən üçün rəva gördüyü bu cəzanı daha da təkmilləşdirmək üçün Cəmil hərdənbir kabinənin qapısını açıb ayağa durur, kuzova boylanaraq dönüb yenə də kabinədə otururdu. Cəmil əməlindən razı idi" [4, s.500]. Cəmil heç cür başa düşə bilmirdi ki, məhəbbət və sevgi sinfi mənsubiyyətə baxmır və onunla ölçülmür. Bu cəhətdən düşünürük ki, yazıçı konfliktin bədii həllindəki bu komponenti düzgün həll etmişdir. Baxmayaraq ki, ədəbi tənqid bunu yazıçının ideoloji səhvi kimi də qələmə verə bilərdi.

Romandakı sinfi düşmən obrazları içərisində Kamalın öz yeri vardır. Yazıçı onu ağıllı, hiyləgər biri kimi təqdim edir. Hətta bu obraz müəyyən mənada sonralar S.Rəhimovun "Mehman" povestində təsvir etdiyi qaloşlu adama oxşayır. Kamal zahiri görkəm etibarilə əlli yaşlı "sısqa-məriz", "uzun ətəkləri yerlə sürünən", milis şinelinin yaxası düyməli olduğundan altdan nə geyindiyi bilinməyən, qaşlarının üstündə milis şapkalı biri kimi təsvir edilir. Əslində işlədiyi milis rəisi vəzifəsi onun sinfi kimliyini gizlətmək üçün ən yaxşı yerdir. Çünki indiyədək ədəbiyyatımızda yaranan sinfi düşmən obrazları içərisində milis formalı sinfi düşmənlərə rast gəlmirik. Bu da Kamalın özünə yaxşı mövqe seçdiyini və yeni quruluşa qarşı manevr imkanlarını artırmış olduğunu göstərir. Yazıçı onu həmişə səksəkə içində olan və narahatlıqla parlayan gözlərini adamlardan qaçıran biri kimi təsvir edir: "Gövdəsinə görə çox iri olan dəyirmi başında lap qaşlarının üstünə basılmış əzik-üzük milis şapkası vardı. Vücudunun bayırda qalan yeganə qismi əyri burnu, çal xətti, çıxıq almacıq gəmikləri, bir də iri çal bığları vardı... İri, yoğun çal bığları isə, alın tərəfdən geniş olan, çənəyə doğru kiçilən üzünün aşağı qismini tamam örtürdü" [4, s.57-58]. Obrazın bu zahiri görkəmi zaman-zaman müxtəlif situasiyalarda özünü büruzə verir. Bu isə yazıçının obrazın psixologiyasını tamamlayarkən zahiri portret üsulundan sənətkarlıqla istifadə etməsinin təzahürü kimi görünür.

Kamalın hər bir situasiyada özünəməxsus mübarizə üsulları vardır; bir tərəfdən "Şura hökuməti üçün mən qardaşımdan keçmişəm. Oğul nədir, canımdan, başımdan da keçməyə hazıram" [4, s.393], – deyə özünü yeni hökumətə yaxın göstərir, digər tərəfdən isə, ustalıqla maskalanaraq görülən işlərə mane olmağa çalışır, düşünülmüş mübarizə aparır və yeri gələndə təxribata yol verir. Onun mübarizə üsullarından biri də sinfi mənsubiyyətini gizlətməməsi idi, çünki bilirdi ki, bunu gizlətmək olmaz, kənddə hamı onu yaxşı tanıyır. Ona görə də keçmişinə işarə edərək "Bu mən, bu siz. Ya tutun göndərin, ya güllələyin, ya da qoyun sizə qulluq eləyim" [4, s.58], – deyə açıq da-

nışır. Bununla da özünü onlara yaxın göstərir, guya artıq onların tərəfindədir. Onun bu hərəkətləri çox zaman işinə yarayırdı; hətta o, vəzifəyə çəkilir, bir çox "təhlükəli" adamları ələ verməklə hökumətin etimadını qazanırdı. Məhz bunun nəticəsində Kamal bir müddət mahalın milis rəisi vəzifəsinə qədər yüksəlir. Onun bu vəzifəsi əl-qolunu daha da açır, münasibətləri genişləndirir.

Kamalın başqa bir xarakteri kimliyini gizlətməkdən, öz məqsədinə çatmaqdan ötrü hər şeyə getməsi idi. Özünü qorumaq üçün Kamal öz həmfikirlərini belə istənilən vaxt qurban verə bilərdi. O, hətta bu yolda dostunu, qardaşını belə istənilən vaxt güdaza verməyə hazır olan bir düşmən olaraq göstərilir. Lakin yazıçı bunu heç zaman açıq tendensiya ilə etmir, həyati mübarizədə bütün ziddiyyətliliyi ilə verir, hekayələrində olan psixologizm romanlarında mövcud gerçəklikləri təsvir etmək üçün ən yaxşı vasitə olur. Tənqidçi M.Hüseyn Əbülhəsənin ayrı-ayrı obrazların psixologiyasını verərkən yazıçı ustalığına və bədii metodun sağlam xüsusiyyətlərinə istinad etdiyi qənaətinə gəlir: "Qolçomaq və ya düşmən siniflərin nümayəndələri istinad etdikləri şəraitlə birlikdə təsvir olunur. Əbülhəsən bu düşmənləri də mübariz və davamlı bir şəkildə göstərməyə çalışır. O, sinfi düşmənləri təsvir etməkdən qəti surətdə qorxmayır, bəlkə bunun tamamilə əksinə olaraq, onları da özünün müsbət qəhrəmanları kimi canlı, davamlı, öz sinfi mənfəəti yolunda heç bir qorxulu mübarizədən çəkinməyən bir şəkildə ifadə edir" [7, s.34]. Tənqidçi haqlıdır, yazıçı bu obrazları sovet hökumətinə ideoloji düşmən kimi göstərsə də, özünün doğma obrazları kimi işləmişdir. Bəzən bu obrazlar müsbət obrazlardan daha canlı və hərtərəfli çıxmışdır.

Əbülhəsən romanda yalnız kollektivləşmə dövrünü təsvir etməklə kifayətlənməmiş, bu dövrdə baş verən hadisələrin, ictimai-siyasi mübarizənin ziddiyyətlərini vermişdir. Bu hadisələr kontekstində yazıçı insanın daxili aləminə enmiş, onların mənəvi-əxlaqi düşüncələrini, siyasi baxışlarını, mübarizəsini, talelərini əks etdirmişdir. Yazıçı sinfi düşmən obrazını açıq şəkildə tənqid etməmiş, sinfi münasibətlərin təsvirində bitərəf yazıçı mövqeyini qoruyub saxlamağa müvəffəq olmuşdur.

Əbülhəsənin "Dünya qopur" romanında isə kiçik qəsəbə Basqal kənd mühitində Cümhuriyyət və ondan sonrakı dövrdə baş verən hadisələr təsvir olunur. Yazıçı Azərbaycanda olan siyasi dəyişikliyin ucqar bir qəsəbədəki əks sədasını; həyəcanlarını, ziddiyyətlərini, sevincini, kədərini, məyusluğunu son dərəcə təzadlı bədii lövhələrlə çatdırır. Romanda iki qardaş olan Bülənd (əsl adı Abdulla) və Veysin (əsl adı Veysəl) taleyi fonunda bu dövrdə baş verən ictimai-siyasi hadisələrə münasibət bildirilir. Bu dövrdə yaxın tarixi hadisələri təsvir etmək və ona ideologiyaüstü qiymət vermək çətin olsa da, yazıçı bunun öhdəsindən gələ bilmişdir. "Dünya qopur" bu dövrün hadisələrini əks etdirən ilk sovet romanlarından biri kimi hadisə və münasibətləri psixoloji, mənəvi cəhətdən əks etdirə bilmişdir. Ədəbiyyatşünas Təhsin Mütəllimov yazır: "...romandakı iki ailənin taleyi daha səciyyəvidir. Onlardan biri qəsəbənin ən böyük taciri Həmzənin, digəri isə ən yoxsul ərbaflardan olub, indi müvəqqəti inqilab komitəsinin sədri seçilmiş Veyisin ailəsidir. Yazıçı qəsəbənin inqilabi yolla dəyişməsində, inkişafında iki rəhbərlik üsulunu göstərir; birincisi, partizançılıq və anarxizm yolu, ikincisi isə müəyyən proqrama malik olan ardıcıl, şüurlu partiya rəhbərliyidir" [9, s.9]. Əlbəttə, bu təhlil heç də romanın siyasi prosesləri əhatə etməsi demək deyil. Hətta əsərin "– Bolşeviklər! Bolşeviklər! Heç kəs bilmədi ki, kimin ağzından çıxdı. Qrammofon susdu. Qulaqlar şəkləndi. Bir an, kiçik bir an səssiz-səmirsiz keçdi. Böyük izdihamın elə bil, həniri lap qəfilcə batdı" [3, s.13] başlanğıcı da hələ romanın siyasi xarakterindən xəbər vermirdi. Çünki Əbülhəsən hekayələrində və "Yoxuşlar" romanında olduğu kimi, burada da daha çox hadisə və münasibətlərin mənəvi-əxlaqi, psixoloji tərəflərini təsvir etməyə önəm verirdi.

Əgər əsərdə bolşeviklərin gəlişindən söhbət açılırdısa, ola bilməzdi ki, bolşeviklərdən əvvəl hakimiyyətdə olan müsavatçılar hakimiyyətinə münasibət bildirilməsin: "-Ayə ey... çayqıraqlı pəzəvəng hərif! Qrammofon niyə susdu?

Bunu deyib o, palanın üstündəki kiçik qutudan bir val götürdü, güc-zor ilə əyilib cavan oğlana verdi:

- Al, çopur, şu "müsavat" marşını qoy da çalsın... dinləyəlim!

"Müsavat" marşı cırıldamağa başladığı vaxt Ağasəfər gördüyü pis yuxunu yadından çıxarmağa çalışıb buna müvafiq olan adamlara məxsus arxayınlıq və xatircəmliklə yenə də gözlərini ətrafa dolandırdı. Onun məqsədi əmisi oğlu Həmzə Rəcəbovu görmək idi" [3, s.14].

Yazıçı ayağa qalxmış Çayqırağı kəndlilərinin hakimiyyəti necə ələ alması məsələsini təsvir edir. O da aydın olur ki, hakimiyyəti ələ alan yoxsullar onu necə əldə saxlamağın yollarını belə bilmirlər. Bunu Veyisin "Başım nədən çıxır ki? Hökumət yıxıldı, dedik, danışdıq. İndi axı nə olsun? Vuraq dağıdaq? Basaq kəsək? Necə? Kiminlə? Nə sayaqnan?" [3, s.18]. Bu fikirlər təsadüfi səslənmir, roman boyu yazıçı bolşeviklərin hakimiyyəti əldə saxlaması üçün özünə ideoloji düşmənlər yaratması və onlara qarşı amansız mübarizəsini son dərəcə incə şəkildə göstərir.

"Dünya qopur" romanında yaradılan obrazların bir tərəfində bolşeviklər, bir tərəfində isə müsavatçılar durur. Bu ona görə belə olmuşdur ki, bolşeviklərin gəldiyi ilk illərdə onlara qarşı duran yeganə siyasi qüvvə müsavatçılar olmuşdur. Əslində bu qüvvələr yalnız müsavatçılardan ibarət deyildi, həm də bütöv xalq və cümhuriyyətçilər idi. Sadəcə o dövrün təbliğatı onları müsavatçılar kimi qələmə verirdi. Romanda bir çox obrazlar da var ki, onlar köhnə ziyalılar, yaxud mənşəcə başqa sinifdən olub ancaq yeni cəmiyyətə müsbət münasibət bəsləyənlər idi. Nəcmi, Həmid müəllim, Sona bu cür obrazlardandır. Maraqlıdır ki, Bülənd Veysdən fərqli olaraq, onlara münasibətdə yaxşı mövqe tutur, onlardan üz döndərmir, əksinə yeri gəldikcə işə cəlb edir. Bülənd həm də Qədiri bitərəf mövqedən daşındırmağa çalışır. Bu cür siyasətlə Bülənd həm Qədirin, həm də Sonanın onlarla bir cərgədə addımlamasına şərait yaradır. Bu münasibət Qədirdə və Sonada özünəinamı artırır, şübhə və tərəddüddən yaxa qurtarmağa sövq edir.

Yazıçı dövrün siyasi mənzərəsini doğru göstərmək üçün bütün siyasi qüvvələri göstərməyə çalışır. Bu cəhətdən Ağasəfər obrazı öz xarakteri və kimliyi ilə tamamilə yeni bir obraz kimi səciyyələnir. Ağasəfər özündə bir neçə xüsusiyyəti birləşdirir; onu müsavatçı, millətçi, öz sinfinə möhkəm bağlı olan bir adam olaraq tanıyırıq. Yazıçı Ağasəfəri nə qədər köhnə dünyanın adamı və mürtəce obrazında göstərməyə çalışsa da, onun xarakterində milli düşüncənin izlərini də görmək mümkündür. Bu cür xüsusiyyətlərin Ağasəfər obrazında birləşməsi heç də təsadüfi deyil, çünki Cümhuriyyət tərəfdarları cəmi iki il ərzində yalnız istiqlalı yaşatmadı, həm də xalqın mədəni və mənəvi həyatında mühüm rol oynadı.

Romanda əks qütbdə dayanan obrazlardan biri də Siratdır. Yazıçı revkom Sirat ilə daxilə soxulmuş, lakin burada özünün qapalı məqsədlərindən istifadə etməyə çalışan obraz yaratmaq istəmişdir. O, sovet hökumətinə qarşı açıq mübarizə aparmaqdan çəkinir, çünki artıq hakimiyyət ələ keçirilmişdir. Lakin bu strukturda yerləşərək əsl məqsəd və məramını cəmiyyətdən gizlədərək gizli planlarını həyata keçirməyə çalışır. O, cibində partiya bileti gəzdirir, lakin partiyaya bağlılığı yoxdur, özünü bolşevik hesab etsə də, hərəkət və əməllərində əks olunmur. Yazıçı bu obrazla daha çox qapalı düşmən obrazı yaratmağa çalışmışdır. Bu cəhətdən Sirat obrazı "Yoxuşlar"dakı Kamal obrazı ilə yaxınlıq təşkil edir. Lakin Kamaldan fərqli olaraq Sirat ictimai mübarizədən daha çox şəxsi mənafeyini düşünür, mənsəb dalınca qaçır, varlanmaq ehtirası ilə alışıb yanır. Onun Sona ilə evlənmək istəyinin əsasında da məhz bu amillər durur. O, Sonanın var-dövləti hesabına Bakıya köçmək, "zinətli", "dəbdəbəli" həyat yaşamaq, "vəzifə əldə etmək" istəyirdi.

"Dünya qopur" romanındakı Qadir, Həmzə obrazları da mövcud cəmiyyətə qarşı duran ideoloji obrazlardır. Doğrudur, onların hər birinin ictimai tutumu vardır, yəni Qadir Ağasəfər kimi müsavatçı kimi göstərilmir. Yazıçı Nəcminin şəxsiyyətini də ziddiyyətli verir. Lakin onu cəmiyyət üçün yararlı olacağına işarələr vardır. Əgər Ağasəfər obrazı ilə müəllif keçmişi əks etdirirsə, Qadir obrazı ilə iki quruluş arasında duran və tərəddüd edən bir ziyalı obrazını yaratmaq istəmişdir. Qadirin müəyyən bir keçmişi vardır; ondan qopa bilmədiyi kimi, hələ yeni quruluşu da qəbul edə bilmirdi. Ona görə ki, hələ bu quruluşun mahiyyətini yaxşı dərk etmirdi. Büləndin ona dediyi "İnqilab cavanlarındır, Qadir! İnqilab dünyanın, tarixin, həyatın qaynar dövrü, cavanlıq, saflıq və təzəlik dövrüdür, cavan adam onu nə qədər tez başa düşsə, o qədər də tez xoşbəxt olar" [3, s.76] sözlərini dərhal qəbul etməkdə çətinlik çəkirdi. Ona görə ki, Qadir gənc olsa da, hadisələrə daha geniş mövqedən, sinfi, partiyalı mövqedən yanaşmırdı. Onun daxilində baş verən hadisələrlə bağlı çoxlu şübhə və tərəddüdlər var idi. Bu şübhə və tərəddüdlər boş yerdən yaranmamışdı, öz gözləri ilə

gördüyü hadisələri ayıq başla təhlil etməkdən irəli gəlmişdi. Bir tərəfdən sovet hökumətinin müvəqqəti olması ilə bağlı söz-söhbətlər, digər tərəfdən isə Büləndlə söhbətləri onu iki fikir arasında qoymuşdu. Nəhayət o, fikrini toplayaraq mövqeyini bəlli edir; vaxtilə əmisinin onlara qoşulmaq haqqında təkliflərinə “Ax, sən məndən nə istəyirsən? Mənə nə vermisən ki, ala bilmirsən?”, – deyirdisə, sonda onların kiçik dəstəsinə qoşulmaq qərarına gəlir. Çünki ətrafındakı adamların çoxu öz mövqeyini artıq bəlli etdiyindən Qadir tək qalmışdı. Lakin o, əmisigilin dəstəsinə qoşulmaq üçün getdiyi zaman sıldırım qayadan atı ilə bərabər uçur və təsadüf nəticəsində salamat qalaraq ələ keçir. Qadirin bir təsadüf nəticəsində salamat qalması və qaçaq dəstəsinə qoşula bilməməsi onun içindəki tərəddüdlərlə bağlı idi. Ədəbiyyatşünas Y.İsmayılov Qadirin uçuruma yuvarlanması və təsadüf nəticəsində salamat qalmasını obrazın “puç ömür və aqibətinə dair fakt” olaraq mənalandırır: “Bu da obrazın puç ömür və aqibətinə dair bədii fakt kimi mənalanır. Xatırladaq ki, hələ əsərin başlanğıcında qələbə xəbəri ətrafa yayılarkən hüznlü düşüncələrə dalan Qadir adi təbiət hadisəsini – günəşin batmasını fikrindən uğursuz simvol kimi keçirmiş və təsadüfi olmayan belə bir cəhət az sonra simvolluqdan çıxıb real həqiqətə çevrilmişdi” [6, s.76]. Ədəbiyyatşünasın bu fikri ilə razılaşmaq mümkündür, çünki Əbülhəsən hər hansı bir təbiət hadisəsinin detalı ilə cəmiyyət hadisəsini paralel təsvir edən yazıçılarımızdandır. Lakin Y.İsmayılovun həmin təsviri “Bu əslində elə Qadirlər, Həmzələr, Ağasəfərlər dünyasının, istismarçı cəmiyyət və varlılar sinfinin əbədi süqutuna – ölümə məhkumluğuna tutarlı bir işarə idi” [3, s.76] dəyərləndirməsi birtərəfli olub, yazıçı ideyasını ifadə etmir. Çünki əsərin başqa yerlərində də köhnə dünyanın “istismarçı”, yaxud “ölümə məhkum” olması ilə bağlı işarələr yoxdur. Əbülhəsən dövrün gerçəkliklərini müəllif mövqeyi olmadan təsvir etməyə çalışmışdır. Romanda iki cəbhə, iki qütb, iki dünyagörüş və ictimai quruluşu təmsil edən obrazlar yaradılmış və onların psixologiyası reallıqla verilmişdir.

Yazıçı romanda Həmzə ilə bacarıqlı möhtəkir və sahibkar obrazı yaratmışdır ki, bu da sovet hökumətinin sinfi düşmənlərindən biri hesab olunurdu. Bununla həm də yazıçı mövcud cəmiyyətin bütün tərəflərini göstərmək istəmişdir. Özü də Həmzə obrazı bütün mənəvi, daxili aləmi, hissləri, sarsıntıları ilə bir yerdə qələmə alınmışdır. Yazıçı böyük ustalıqla Həmzənin tacir psixologiyasını, var-dövlətə hərisliyini bədii detallarla yaratmağa nail olmuşdur. “Qızıl gərək yeriyə, oynaya, uça, özünə hər yanda yer tapa, qayıdanda özüynən özündən çox qızıl gətirə!” [3, s.236] kimi fikirlərində onun tacir psixologiyası açılır. Onun dövlətli olması, sovet hökumətinin isə dövlətliyə meydan oxuması onları üz-üzə gətirir. Lakin Həmzə yeni quruluşa nifrətini dərhal büruzə vermir, çünki o, mövcud vəziyyəti görür və onu dəyərləndirirdi. Buna görə də hələ ki, yeni quruluşa cəbhə açmamaqla əlindəkini qoruyub saxlamağa çalışırdı. Lakin elə ki, var-dövlətinin əlindən çıxması təhlükəsi yaxınlaşır, Həmzə Qayakənd iclasında əsəbiləşir və çox şeylər söyləyir. Bundan sonra isə meşəyə qaçmalı olur. Həmzə meşədə çox duruş gətirə bilmir, o da, yoldaşları da bu həyatdan bezir, həm də meşədə gizlənməklə yeni quruluşa qarşı mübarizə aparmaq olmazdı. Buna görə də gizli yolla hələ sovetləşməmiş Gürcüstana keçmək, burada menşeviklərə qoşularaq birgə mübarizə aparmaq istəsə də, buna nail ola bilmir. O, getdikcə Sovet hökumətinə qalib gəlməyin çətinliyini başa düşür. Keçmişini xatırlayıb bu günlə müqayisə etdikcə yaxşı günlərin, şirin xatirələrin keçmişdə qaldığını dərk edir. Bütün bunları yazıçı mümkün olduğu qədər bitərəf mövqedən təsvir edərək mövcud cəmiyyəti rəngarəngliyi ilə göstərir. Bununla yazıçı 30-cu illərdə olan mövcud şablon yaradıcılıq üsulundan imtina etmiş olur. Yazıçının da bədii cəhətdən ən böyük uğuru cəmiyyəti olduğu kimi əks etdirmək olmuşdur. Əlbəttə, burada bəzi istisnaları da deməmək olmur. Belə ki, qütblərin təsvir tənasübündə kommunist, işçi sinfinə daha çox yer verilməsi, yaxud erməni-müsəlman davasının sosialist ideologiyasına uyğun təsvir edilərək əsl mahiyyətinin üzə çıxarılmaması (mövcud ideoloji sistem buna imkan vermirdi) kimi məsələlər burada özünün yüksək bədii həllini tapmamışdı. Bütövlükdə isə romanı həm bədii cəhətdən, həm də dövrün gerçəkliklərini, qarşı-qarşıya duran qüvvələrin reallıqla göstərilməsi baxımından uğurlu hesab etmək olar. Tənqidçi M.Hüseyn də bunu nəzərdə tutaraq yazırdı: “Romanı oxuduğumuz zaman qarşımızda gündəlik, real hadisələri görürük. Əbülhəsən öz təsvirlərində hadisələrin mahiyyətini aydınlaşdırmağa, düşməni dərindən, bütün arzuları ilə, bütün dünyagörüşü ilə birlikdə göstərməyə çalışır. O, düşmənin mənəviyyatını təhlil etməkdən qorxmayır. Yaxşı bilir ki, bu gün düşməni tanımaq və onunla daha

amansız mübarizə aparmaq üçün onun həyata olan münasibətini, əleyhimizə apardığı mübarizənin yollarını da öyrənmək lazımdır" [8, s.93]. M.Hüseynin bu qiymətləndirməsi tamamilə doğrudur, görünür, buna görə onun "düşmən" obrazları çox canlı və hərtərəfli çıxmışlar. Onun "düşmən" obrazları digər yazıçılarda olduğu kimi, cansız, quru və sxematik deyildir.

**Nəticə /** ***Conclusion***

Beləliklə, Əbülhəsən yaradıcılığında sinfi mübarizəni əks etdirən onlarla obrazın taleyinin bədiilik baxımından yaşarılılığının şahidi oluruq. Bu obrazlar müəllif tərəfindən sadəcə düşmən olaraq yaradılmamışdır, qarşı-qarşıya duran qüvvələri təmsil edən dünyagörüş kimi ortaya çıxmışdır. O, həm də inqilabın Azərbaycan cəmiyyətinə gətirdiyi sarsıntıları, on minlərlə insanın həyatının dağılmasını, taleyinin qırılmasını göstərir. Doğrudur, bu əsərlərə sovet tənqidçi və ədəbiyyatşünasları daha çox proletar mövqeyindən yanaşmış, onun təhlilində sosialist realizmi prinsiplərindən çıxış edilmişdi. Lakin bu günün mövqeyindən baxdıqda, ilk sovet nəsrinin bu nümunələrində dövrün gerçəkliklərinin ifadə olunduğunu aydın şəkildə görmək olar. Əlbəttə, bu əsərlərdə müəyyən sxematiklik, partiyalılıq mövqeyini də görmək olar, lakin bütövlükdə həmin dövrün ictimai-siyasi hadisələrini bu əsərlərdən öyrənmək və doğru nəticələrə gəlmək mümkündür.

**Ədəbiyyat /** ***References***

1. Arif M. Seçilmiş əsərləri. 3 cilddə, I c. Bakı: Elm, 1967.
2. Əbülhəsən Ə. Boşandı. Bakı: Azərnəşr, 1932.
3. Əbülhəsən. Seçilmiş əsərləri. 3 cilddə, I c. Bakı: Azərnəşr, 1984.
4. Əbülhəsən. Yoxuşlar. Bakı, Azərnəşr, 1962.
5. Xəndan C.Yoxuşlar yada düşür... "Ədəbiyyat və incəsənət", 1961, 7 yanvar.
6. İsmayılov Y. Əbülhəsənin yaradıcılığı. Bakı: Elm, 1986.
7. Mehdi H. Əbülhəsənin "Yoxuşlar"ı. Hücum, 1931, №5-6.
8. Mehdi H. Əsərləri. 10 cilddə, IX c. Bakı: Yazıçı, 1979.
9. Mütəllimov T. Zamanın səsi//Əbülhəsən. Seçilmiş əsərləri. 3 cilddə, I c. Bakı: Azərnəşr, 1984.

## Образы классового врага в произведениях Абульгасана

**Нурана Асадуллаева**
Доктор философии по филологии
Национальный музей Азербайджанской литратуры имени Низами Гянджеви НАНА.
Азербайджан.
E-mail: x_nura_x@list.ru

**Резюме.** В статье рассматривается образ идеологического классового врага в произведениях Абульгасана, кто является одним из основоположников азербайджанского романа в советское время. Показано, что в рассказах и романах Абульгасана художественно отражены события самых сложных и противоречивых 20-30-х годов жизни Азербайджана. В таких рассказах Абульгасана, как «Софи», «Убийство», «Развод», «Арас», «Двадцать один» и др. отражаются новые общественные отношения, события, реалии того времени. В описании и развитии отношений, возникающих между образами, принимающими и не принимающими новую структуру, а также в художественном решении автор обращает внимание на психологические моменты. В своих рассказах писатель уделяет большое место духовно-нравственным качествам образа, его неповторимости, душевному миру. Следует отметить,

что в то время писателю было довольно сложно писать произведения о современности. Потому что во время описания современных событий позиция господствующей идеологии так или иначе должна была найти свое отражение в произведении. В это время нужен был идеологический подход и описание событий с пролетарской позиции. Но преимущество Абульгасана как писателя состояло в том, что он стремился описать события, свидетелями которых он был, насколько это возможно, не поддаваясь пролетарской идеологии.
В романах «Подъёмы» и «Мир рушится», Абульгасан пытался изобразить реалии того времени без авторской позиции, через множество образов. Создавая образы, представляющие два фронта, два полюса, два мировоззрения и общественный строй, писатель пытался реалистически показать их психологию. Эти образы создавались автором не просто как враги, а как мировоззрение, представляющее противостоящие силы. Он также показывал потрясения, причиненные революцией азербайджанскому обществу, разрушение жизней десятков тысяч людей, разрушение их судеб.
**Ключевые слова:** Абульгасан, рассказы и романы, классовые распри, образ врага